# YUSİF SEYİDOV – 90



Dövlət mükafatı laureatı, əməkdar elm xadimi, filologiya elmləri doktoru, professor Yusif Mirəhməd oğlu Seyidov 2 may 1929-cu ildə Naxçıvan MR Şərur rayonunun Yengicə kəndində anadan olmuşdur. 1944-cü ildə orta məktəbi bitirdikdən sonra Naxçıvan Müəllimlər İnstitutuna daxil olmuş, 1947-1952-ci illərdə isə pedaqoji sahədə irəliləmək, elmi axtarışlarında daha da təkmilləşmək üçün Azərbaycan Dövlət Universitetinin Filologiya fakültəsində təhsilini davam etdirmişdir.

Yüksək elmi biliyi, elmi axtarışlara həvəsi və səyinə görə aspiranturada saxlanılmış, 1955-ci ildə "Müasir Azərbaycan dilində feili bağlama tərkibləri" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir. Ömrünün sonuna qədər Azərbaycanın ən ali təhsil ocağı olan Bakı Dövlət Universitetində pedaqoji və elmi-tədqiqat işlərini davam etdirən Yusif Seyidov 1955-ci ildə "Ümumi dilçilik" kafedrasında müəllim, baş müəllim kimi fəaliyyət göstərmiş, 1955-1967-ci illərdə dosent, 1967-ci ildən isə professor vəzifəsində işləmişdir.

Azərbaycan dilçiliyinin aktual problemlərinə, ümumi dilçilik məsələlərinə, ədəbi dilimizin müxtəlif dövlərinə dair araşdırmalar aparan Yusif Seyidov "Müasir Azərbaycan dilində söz birləşmələri" mövzusunda sanballı, böyük elmi dəyəri olan tədqiqat işini yazır və 1965-ci ildə doktorluq dissertasiyasını uğurla müdafiə edir. Elmi yaradıcılığı ilə paralel şəkildə pedaqoji fəaliyyətini də davam etdirən Y.Seyidov elə həmin ildə Universitetin filologiya fakültəsində yaradılan "Azərbaycan dili və ədəbiyyatının tədrisi metodikası" kafedrasının müdiri seçilir və ömrünün sonuna qədər bu kafedrada yüzlərlə tələbə yetişdirir, dərsliklər hazırlayır, elmi əsərlər ərsəyə gətirir. Dilçiliyin nəzəri və tətbiqi problemlərinə həsr edilmiş bir çox elmi əsərin müəllifi olan Yusif Seyidov dilçi alim və pedaqoq olmaqla yanaşı, tənqidçi və ədəbiyyatşünas kimi də fəaliyyət göstərir, həm dövri mətbuatda, həm də elmi-nəzəri tədbirlərdə, ədəbi-bədii məclislərdə müntəzəm iştirak edir. Qeyd edək ki, dilçiliyin müxtəlif sahələrinə, o cümlədən Azərbaycan dilçiliyində çox az işlənmiş sahələrə dair dərin elmi araşdırmalar aparan görkəmli alimin ilk məqaləsi 1952-ci ildə "Azərbaycan müəllimi" qəzetində dərc olunmuşdur.

*Azərbaycan dilçiliyi tarixində öz sözünü deyən, bu elmi xəzinəyə dəyərli, fundamental əsərlər bəxş edən, böyük dilçilər nəsli yetişdirən, gözəl pedaqoq Yusif Seyidov 18 noyabr 2013-cü ildə vəfat etmişdir.*

Elmi-nəzəri məzmununa, metodiki mükəmməlliyinə, praktiki dəyərinə görə qiymətli dərs vəsaitləri və dərsliklərin – ali məktəblər üçün "Müasir Azərbaycan dili" (I hissə 1959, II hissə 1963, IV hissə, Sintaksis, 1972, 1985, 2009), bir neçə dəfə nəşr edilmiş "Azərbaycan dili" və "Azərbaycan dilinin qrammatikası. Morfologiya" dərsliklərinin, orta məktəblərdə "Azərbaycan dili" kitablarının müəllifi və ya əsas müəlliflərindən biri olan Yusif Seyidov rusdilli

məktəblər üçün nəzərdə tutulan "Azərbaycan dili" dərsliyinin də yazarıdır. Ümumiyyətlə, Yusif Seyidov dilçiliyin nəzəri və tətbiqi problemlərinə həsr edilmiş 300-dən çox elmi, elmi-publisistik məqalənin, o cümlədən 40-a yaxın kitabın (monoqrafiya, dərslik və dərs vəsaitinin) müəllifidir.

Yusif Seyidov "*Klassik Azərbaycan şairləri söz haqqında*" (1977), *"Yazıçı və dil*" (1979), *"Sözün şöhrəti*" (1981), "Sözün qüdrəti" (1988), *"Sözün hikməti*" (1989) adlı məqalə və monoqrafiyalarında XI əsrdən başlayaraq müstəqillik dövrünə qədərki böyük bir dövrdə yazıb-yaradan Azərbaycan yazıçılarının söz və sənət haqqında, dil və onun insanın həyatında yeri, cəmiyyətin mənəvi birliyinin təmin edilməsində rolu, dilin milli kimliyin təyinində əhəmiyyəti barədə fikirlərini toplayaraq sistemləşdirmiş, ədəbi-tarixi xronologiya üzrə, elmi-nəzəri metodologiya və ardıcıllıqla təsvir etmiş, ədiblərimizin dilçilik, ədəbiyyatşünaslıq və estetik görüşlərini analiz etmiş, özünəməxsus təhlil süzgəcindən keçirərək, sanballı dil tarixi salnaməsi yaratmışdır. Dil və ədəbiyyatımızın müxtəlif sahələrinə dair qiymətli əsərlər müəllifi olan Yusif Seyidov Azərbaycan dili tarixini də tədqiqatlarından kənarda saxlamamış, bu istiqamətdə dərin elmi məzmunu olan araşdırmalar aparmışdır: "Nəsiminin əsərləri Azərbaycan ədəbi dilinin tarixi abidəsi kimi", "Dastani-Əhməd Hərami" haqqında bəzi qeydlər", "Kitabi-Dədə Qorqud"un dilində sadə cümlə (inkişaf səviyyəsi)", "Kitabi-Dədə Qorqud" dastanlarının dilində tərkib və budaq cümlə paralelizmi", "Dövrün (XII-XIX əsrlər) şeir dilinə ümumi bir nəzər", "Ədəbi şəxsiyyət və dil" və s. məqalələri, habelə "Nəsiminin dili" monoqrafiyası ciddi müşahidə və axtarışların, dərin elmi təfəkkürün məhsuludur.

Yusif Seyidovun elmi yaradıcılığı təkcə dilçilik məsələləri ilə məhdudlaşmır, klassik və müasir ədəbiyyatımızın görkəmli nümayəndələrinin fikir və söz dünyası, sözün sehri, sözün ifadə qüdrəti, hissin, həyəcanın, duyğunun dildə ifadəsi onun təhlil və tədqiq süzgəcindən keçir. Alimin bu sahədə qələmə aldığı hər əsərindən kiçik bir fraza onun Azərbaycan ədəbiyyatı, ədəbi dünyası, söz aləminə münasibətini ortaya qoyur. Nəsiminin söz dünyası, dil ecazkarlığı haqqında fikir və mülahizələrini söyləyən Yusif Seyidov şairin dilini fəlsəfi dilçilik kontekstində araşdırmış, onun fikir dünyasını özü üçün "*əlçatmaz, heyrətamiz, sirli bir dünya*" adlandırmışdır.

Yusif Seyidov Füzuli, Mirzə Cəlil, Mirzə Fətəli Axundzadənin yaradıcılıqlarına Azərbaycan elminin, mədəniyyətinin, təhsilinin açarı kimi baxmış, Məmməd Arifin, Mirzə İbrahimovun, Səməd Vurğunun, Bəxtiyar Vahabzadənin, Məmməd Arazın, Sabir Rüstəmxanlının, Elçinin əsərlərini "*bütövlüyü, tamlığı, parçalanmazlığı ilə ədəbi-bədii dilimizin xüsusi rəngləri*" adlandırmış, Məmməd Cəfər yaradıcılığını, onun əsərlərini "*bütöv Azərbaycan ədəbiyyatının güzgüsü*" hesab etmişdir.

Vətən haqqında "Ayaq tutub yeridiyin, ata-ananın məskən saldığı evə, həyətə, kəndə övlad məhəbbəti bütün böyük Vətənə məhəbbətdir, elə Vətən həmin evdən, həyətdən başlanır" deyən dilçiliyimizin ağsaqqalı Yusif Seyidov özünün həyat kredosunu belə açıqlayırdı: "*İnsan dünyaya gəlir, böyüyür, qocalır və ömrün hansı çağındasa ruhlar aləminə qayıdır. Bu, həyatın dinamikasıdır, rəngləridir, yeni həyatın özüdür".* Bu il 90 illik yubileyini qeyd etdiyimiz görkəmli dilçi alim, ədəbiyyatşünas, Azərbaycan Yazıçılar Birliyinin üzvü, Azərbaycan Dövlət Mükafatı laureatı, əməkdar elm xadimi, hamımızın müəllimi mərhum professor Yusif Seyidov kitablarında, qiymətli tədqiqatlarında, hər birimizin qəlbində, sözündə yaşayır.

*Qətibə Vaqifqızı*